Görüşün məqsədi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1 may 2015-ci il tarixli 125 nömrəli qərarı ilə təsdiq olunmuş “Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında təhsil alması Qaydaları”nın təqdimatı və mümkün sualların müzakirəsindən ibarət olub. Görüş zamanı yeni qaydalarla bağlı məsul şəxslərə izahat verilib, suallar cavablandırılıb və əcnəbi tələbələrin Azərbaycanda təhsil imkanlarının təkmilləşdirilməsi istiqamətində fikir mübadiləsi aparılıb.